# Beynəlxalq Ailə Günü

***Bütün dünyada 15 may Beynəlxalq ailə günü kimi qeyd olunur.***

***BMT Baş Assambleyası 1993-cü ilin sentyabrında 15 may tarixini 1994-cü ildən etibarən hər il Beynəlxalq Ailə Günü kimi qeyd etməyi qərara alıb.***



Azərbaycanda ailə bütün zamanlarda cəmiyyətimizin ən müqəddəs təməl daşı hesab olunub. Ulu öndər Heydər Əliyev Azərbaycan ailəsi və onun problemlərini həmişə diqqətdə saxlayırdı.

Bu münasibət indi də dövlət başçımız İlham Əliyev tərəfindən həssaslıqla davam etdirilir.

Azərbaycan cəmiyyətində ailə hər zaman müqəddəs sayılıb. Bu gün ölkəmizdə ailə cəmiyyətin əsas özəyi kimi dövlətin xüsusi himayəsindədir və dövlət öz siyasətində ailənin sosial müdafiəsini, gənc ailələrə qayğını əsas tutur.

**"Qəbələ"**

# İdman xəbərləri

## "Sumqayıt"- "Qəbələ" - 0:2

Topaz Premyer Liqasının XXVII turunda "Sumqayıt"la qarşılaşan "Qəbələ" mövsümdə son səfər matçını keçirib. "Qırmızı-qaralar" rəqib meydanında 2:0 hesabı ilə qalib gəlib. Bu oyunda vurulan iki qolla komandamız özünün səfərdəki məhsuldarlıq rekordunu təkrarlayıb.



Belə ki, "Qəbələ" mövsüm ərzində rəqib meydanında keçirdiyi 14 görüşdə 23 dəfə qapılara yol tapıb. Bu, 12-ci mövsümdür yüksək dəstədə çıxış edən "qırmızı-qaralar"ın ən yüksək göstəricisinin təkrarıdır.

Futbolçularımız 2014/15 mövsümündə də rəqib meydanlarında rekord sayda - 23 qol vurmuşdu. Lakin həmin rekordun qeydə alındığı vaxt səfərdə 16 oyun keçirən "Qəbələ" bu dəfə daha az - 14 qarşılaşmada fərqlənib.

## Avropa kubokunda «Qəbələ» finalı



Rusiyanın Orenburq şəhərində cüdo üzrə Avropa kuboku keçirilib. Yarış Azərbaycan milli komandasının və "Qəbələ" İdman Klubunun təmsilçiləri üçün uğurlu alınıb. Kişilərin 60 kq çəki dərəcəsində finalda klubumuzun iki üzvü qarşılaşıb.

Mehman Sadıqov həlledici görüşədək Rusiya idmançıları Şaxzod Amonova, Obid Dzebova, fransalı Yolan Florimonta və daha bir meydan sahibi İvan Dolqixə qalib gəlib.

Kəramət Hüseynov isə finaladək rusiyalı Danila Kurtaşov, Sergey Abian, Dmitri Kulikov və Baxriddin Muminovla qarşılaşıb.

Avropa kubokundakı "Qəbələ" finalında isə Sadıqov ipponla qalib gələrək qızıl medala yiyələnib.

## Qaliblər və valideynlərlə görüş

Mayın 2-də Qəbələ Rayon Uşaq-Gənclər İdman-Şahmat Məktəbində ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə keçirilən Respublika Şahmat festivalının rayon mərhələsinin qalibləri və onların valideynləri ilə görüş təşkil edilmişdir.

Görüşdə məktəbin direktoru Ədalət Əliyev qaliblər və onların valideynlərini bir daha təbrik etmiş və məktəbli şahmatçılara festivalın Bakı şəhərində keçiriləcək final mərhələsindəki yarışlarında uğurlar diləmişdir.

Sonra görüş diskussiya formasında davam etmiş, valideynlər şahmat yarışlarına aid bilgilərlə məlumatlandırılmışlar.

**Nərmin RİZVANOVA.**

## Maraqlı faktlar

1. Monaş Universiteti Avstraliyada ilk universitetdir ki, şəhərin və ya ştatın adı ilə deyil, insanın şərəfinə adlandırılmışdır.

2. Andreas Qurskinin çəkdiyi "II Reyn" dünyanın ən bahalı fotoşəkli kimi tarixə düşmüşdür. Belə ki, həmin əsər 2011-ci ildə Nyu-Yorkun "Kristis" hərrac evində 4,3 milyon dollara satılmaqla rekord göstəriciyə nail olmuşdur.

3. İnsanın daxili üzvlərində həzm aparatı, tənəffüs aparatı və sidik-cinsiyyət aparatı adlı üç aparat var.

4. Azərbaycana düşdüyü bilinən ilk dəmir meteorit olan Yardımlı meteoriti keçmiş SSRİ ərazisinə düşən 3-cü böyük meteorit sayılır.

5. Dünyada ilk qadın pilot Ameliya Erhart, Azərbaycanda isə Leyla Məmmədbəyovadır.

6. Hunza türkləri 110-120 il yaşayırlar və xərçəng xəstəliyinə tutulmurlar.

7. İlk kosmik turist amerikalı Dennis Tito olmuşdur.

8. Elektromaqnit induksiya hadisəsini 1831-ci il avqustun 29-da ingilis fiziki Maykl Faradey kəşf etmişdir.

9. Dünyada ilk kalkulyator olan arifmometrdən 90 il ərzində istifadə edilmişdir.

10. Yer kürəsinin üç ən dərin mağarası Abxaziyada yerləşir.

## Zərdəçal (sarıkök) bitkisinin faydaları

***Sarıkökü meydana gətirən element kurkumindir. Sarıkök Hindistanda 2500 ildir ki, istifadə edilən bir bitkidir. Maraqlı olanı isə ilk zamanlarda boya kimi istifadə olunmasıdır.***

1. Bu ədviyyatın tibbi xüsusiyyətləri özünü əsrlər boyu yavaş-yavaş göstərməyə başlamışdır. Zərdəçalın bilinən ən köhnə xüsusiyyəti iltihab aradan qaldırıcı olmasıdır. Son araşdırmalar isə Zərdəçalın xərçəngdən - alzheimerə qədər bir çox xəstəliyə qarşı təsirli olduğunu ortaya qoymuşdur.

***Sarıkök bitkisinin xüsusiyyətləri:***

2. Təbii bir antiseptik və antibakterial olan sarıkök, dəridəki kəsik və yanıq kimi yaralanmalarda da dezenfeksiya edici olaraq istifadə edilə bilər.

3. Gül kələm ilə qarışdırıldıqda prostat xərçənginə qarşı qoruyucudur. Orqanizmdə bununla bağlı olan



narahatlığı dayandırar və inkişafına mane olar.

4. Uşaqlarda qan xərçəngi riskini azaldır.

5. Qaraciyərin təbii təmizləyicisidir.

6. Alzheimerə qarşı qoruyur və xəstəlik varsa irəliləməsinin müəyyən qədər qarşısını alır.

7. Təbii bir ağrıkəsicidir.

8. Maddələr mübadiləsini nəzarət altına almağa və çəkini qorumağa kömək edir.

9. Çində uzun illər boyunca depressiyaya qarşı istifadə edilir.

10. Kimyəvi dərmanların xeyirli təsirlərini artırır və yan təsirlərini azaldır.

11. Şişlərdəki ziyanlı hüceyrələrin böyüməsinə mane olar.

12. Yaraların yaxşılaşmasını sürətləndirir.

***Zərdəçal ilə əlaqədar xəbərdarlıqlar:***

- Sarıkökü toz halında və ya həb kimi istehlak edə bilərsiniz.
- Ödündə daş olanların istifadə etməsi məsləhət görülmür.
- Hamilə qadınlar həb şəklində istifadə etməzdən əvvəl həkimlərlə məsləhətləşməlidirlər.


QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə
2018-ci ilin ikinci yarısı üçün abunə yazılışına başlanmışdır
Yarımillik abunə qiyməti 15 manatdır.
Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.
Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.
Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).
Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.


### Qəbələ Rayon Turizm İnformasiya Mərkəzi sair xərc maddələri üzrə satınalınmalar üçün katirovka sorğusu elan edir

**Ünvan:** Qəbələ şəhəri 28 may küçəsi 40

**Əlaqə telefonu:** 024-205-22-56

Qiymət katirovkaları **22 may 2018-ci** ilə kimi qəbul olunur.

### İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 noyabr 2006-cı il tarixli 25 saylı qərarı ilə rayonun Kötüklü kənd sakini **Əhmədov Bəhram Şamil oğluna və ailə üzvlərinə** verilmiş İN seriyalı 0083 nömrəli (kod 40614038) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

### ALLAH RƏHMƏT ELƏSİN!

Qəbələ İncəsənət Məktəbinin kollektivi iş yoldaşları **Sevinc Əhmədovaya** anası

**ALMARA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər

Qəbələ İncəsənət Məktəbinin kollekitivi iş yoldaşları Nərgiz Kərimovaya, Reyhanə Hüseynovaya və **Sevinc Hacıyevaya** əzizləri

**İLHAM HACIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qəbələ İncəsənət Məktəbinin kollektivi iş yoldaşları **Mariya Əsgərovaya, Nailə Məmmədovaya** və **Flora İsmayılovaya** əzizləri

**ƏLİ ƏSGƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.


«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56



Redaktor
Varis Yaqubov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*
*Məsul katib*
*Qüdrət Səmədov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1769*